# REZİDENTURAYA ƏRİZƏ VERƏN NAMİZƏDLƏR ÜÇÜN TƏLİMAT

Mərkəzin elektron xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçinin (abituriyentin, bakalavrın, namizədin) şəxsi kabineti olmalıdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilə bilər. Şəxsi kabineti https://ekabinet.dim.gov.az/ linkinə daxil olmaqla yaratmaq lazımdır. Rezidenturaya qəbul imtahanlarında iştirak etmək üçün namizəd https://eservices.dim.gov.az/erizerez/erize səhifəsinə "Digital Login" və ya "Şəxsi kabinet"in istifadəçi adı və şifrəsi ilə daxil olmalıdır (şəkil 1).




**Şəkil 1.** Giriş.

Açılan səhifədə aktiv və istifadə olunan elektron xidmətlər əks olunur. Müvafiq xidmətin qarşısındakı "Daxil ol" düyməsi sıxılaraq ərizəyə keçid edilir (şəkil 2).




**Şəkil 2.** İstifadə etdiyiniz xidmətlər.

Ekranda əks olunan səhifədə 3 alt menyu (şəxsi məlumatlar, ali təhsil və imtahan) və status bölməsi yerləşir:

– "Şəxsi məlumatlar" bölməsində şəxsi və əlaqə məlumatlarınız əks olunur (bu sahələrdə dəyişiklik etmək üçün şəxsi kabinetə keçid etmək və müvafiq dəyişikliyi icra etmək lazımdır). Əgər ali təhsil müəssisələrinin əsas (baza ali) tibb təhsili

səviyyəsinə qəbul olunduqdan sonra soyad, ad və ya ata adında dəyişiklik olubsa, müvafiq xanalarda dəyişikliklər edilərək, “Yadda saxla” düyməsi sıxılır (şəkil 3);




**Şəkil 3.** Şəxsi məlumatlar bölməsi.

– “Ali təhsil” bölməsində “Əsas (baza ali) tibb təhsili haqqında məlumat verin” düyməsi sıxıldıqda məlumatlarınız “Tələbə-məzun” dövlət elektron məlumat sistemindən (TMMS) (xarici ölkələrdə təhsil alanların məlumatları isə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) müvafiq informasiya sistemindən) sorğulanıb ekranda əks olunur (əsas (baza ali) tibb təhsili haqqında məlumat cədvəldə əks olunmadığı halda namizəd bitirdiyi ali təhsil müəssisəsinə müraciət edib, diplom məlumatlarının TMMS-ə daxil edilməsini tələb etməlidir). “Seç” düyməsini sıxdıqda, açılan pəncərədə əsas (baza ali) tibb təhsili diplomuna aid məlumatlar əks olunur. Ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) xanasının boş olması, ÜOMG-nin TMMS-ə daxil edilmədiyini göstərir. Bu göstərici məlum olmadıqda, həmin xana boş saxlanılmalıdır. Bundan sonra “Yadda saxla” düyməsi sıxılır (şəkil 4 və 5);




**Şəkil 4.** Ali təhsil bölməsi.




**Şəkil 5.** Ali təhsil haqqında məlumatlar.

– İmtahan bölməsinə keçid edilərək, aktiv imtahan qeydiyyatına müvafiq 1-ci cəhd (və ya 2-ci cəhd) imtahanına qeydiyyatdan keçmək üçün şəkildə göstərilmiş müvafiq düymə sıxılır (şəkil 6);




**Şəkil 6.** İmtahana qeydiyyat bölməsi.

Açılan ekranda namizəd imtahanda iştirak edəcəyi əsas (baza ali) tibb təhsili istiqamətini və bölməni seçib “Yadda saxla” düyməsini sıxır (şəkil 7);




**Şəkil 7.** İstiqamət və bölmə seçimi.

**Qeyd**! Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" nəticə əldə etmiş (40 və daha artıq bal toplamış) namizədlər cari ildə qəbul imtahanının 1-ci mərhələsində iştirak edib-etməyəcəkləri haqqında məlumatı qeyd edir.

Ərizənin statusu hissəsində imtahana qeydiyyat ərizəsinin təsdiq olunub-olunmadığı və səhvlər haqqında məlumat qeyd olunur (şəkil 8). "Təsdiq et" düyməsini sıxdıqda ekranda xəbərdarlıq bildirişi açılır. Bu bildirişdə ərizənin təsdiqi üçün tələb olunan vəsaitin şəxsi kabinetin balansından çıxarılmasına razılıq verməklə, namizəd ərizəni özü təsdiq edir;




**Şəkil 8.** Ərizənin təsdiqi bölməsi.

**Qeyd**! Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" nəticə əldə etmiş (40 və daha artıq bal toplamış) və cari ildə qəbul imtahanının 1-ci mərhələsində iştirak etməyəcəkləri haqqında müvafiq məlumatı daxil etmiş namizədlərdən ödəniş tələb olunmur.

Təsdiqlənmiş ərizəni çap etmək üçün "Çap" düyməsi sıxılır. Məxfiliyi təmin etmək və kənar şəxslərin müdaxiləsinin qarşısını almaq üçün ərizə səhifəsinin yuxarı sağ hissəsində yerləşən "Çıx" düyməsi sıxılır.